# Xalqın qəhrəmanlıq salnaməsi

Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilən, ən yeni tariximizin şərəfli səhifələrindən biri sayılan 20 Yanvar xalqımızın azadlıq, demokratiya və suverenlik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya nümayiş etdirdi, milli azadlıq hərəkatının müstəqilliyə doğru irəliləməsində ciddi dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi birləşmələrinin Azərbaycanda törətdiyi kütləvi qırğından 33 il keçməsinə baxmayaraq xalqımız həmin faciənin ağır nəticələrini bu gün də xatırlayır. Vətənin azadlığı və suverenliyi uğrunda canından keçmiş oğul və qızları dərin ehtiramla yad edir.

Sovet rəhbərliyi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. Lakin bu qərarın tətbiqi barədə əhaliyə vaxtında xəbər verilmədi.

Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-sinin "Alfa" qrupu yanvarın 19-da respublika televiziyasının enerji blokunu partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələrinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Azərbaycan informasiya blokadasına alındı. Əhali məlumat almaq mənbələrindən məhrum edildi.

Mərkəz tərəfindən Azərbaycana qarşı aparılan mənəvi, ideoloji və siyasi təcavüz qısa müddət ərzində faciəvi sonluqla bitdi. Sovet ordusunun xüsusi təlim görmüş, tərkibində erməni zabitlərinin olduğu 12 min nəfərlik qoşun hissələri, zirehli texnika 3 istiqamətdən Bakıya yeridildi. Şəhərdə yanvarın19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədildi.

20 yanvar faciəsi zamanı rəsmi məlumatlara görə Bakıda 131 nəfər mülki şəxs küçələrdə, evlərdə, avtomobillərində, iş yerlərində öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs edilmiş, 200-dən çox bina, 80 avtomobil, o cümlədən təcili yardım maşını yararsız hala salınmışdır.



Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də böyük siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin Bakıya qoşun yeridilməsi haqqındakı qərarını insanlığa, demokratiyaya və konstitusiyaya zidd addım kimi qiymətləndirərək bu faciəni törədənlərin cəzalandırılmasını tələb etmişdi.

20 yanvar faciəsi respublikamızın digər şəhər və rayonlarından da yan keçmədi: Yanvar ayının 22-də və 25-də Lənkəranda, Neftçalada da dəhşətli hadisələr törədildi. Burada da dinc əhaliyə amansız divan tutuldu.

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də öz şəhidləri ilə vidalaşdı. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak etdi.

Bu tarixi faciə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda gördü.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin ilin noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verildi. Sonradda respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edildi.

Yalnız ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Respublika səviyyəsində faciəyə hüquqi-siyasi qiymət verildi.

Ümummilli lider Heydər Əliyev 20 yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının göstərilməsinə böyük diqqətlə yanaşırdı. Bu gün Şəhidlər Xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa edilmişdir.

Ulu öndər Heydər Əliyevin 2000-ci il yanvar ayının 17-də imzaladığı fərmanla 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 yanvar şəhidi" fəxri adı verildi. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət Başçısı 19 yanvar 2006-cı il tarixdə "20 yanvar şəhidlərinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərman vermişdir. Prezident cənab İlham Əliyevin tapşırığı ilə "Şəhidlər Xiyabanı"nda şərq memarlığı üslubunda əsaslı təmir və yenidənqurma işləri aparılmış, Bakıda, metronun "20 yanvar" stansiyası üzərindəki ərazidə 20 yanvar şəhidlərinin xatirəsinə Memorial Abidə Kompleksi ucaldılmışdır. Azərbaycanın Milli Qəhrəmanlarının, 20 yanvar faciəsində, torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların ailələrinə, Qarabağ müharibəsi əlillərinə və veteranlarına Prezident təqaüdləri təyin edilmişdir. Təyin edilən Prezident təqaüdlərinin məbləğinin vaxtaşırı artırılması onlara göstərilən dövlət qayğısının təzahürüdür. Prezident təqaüdü alan insanların mənzil və digər sosial problemlərinin həlli bu gün də müvafiq dövlət qurumlarının diqqət mərkəzində saxlanılır.

Bu il 20 Yanvar faciəsini bir başqa əhval-ruhiyyədə, bütöv Azərbaycanın, Qalib ölkənin vətəndaşları kimi yad edirik. Bir tərəfdən kədər hissi, digər tərəfdən qürurla şəhidlərimizi ziyarət edirik. Çünki Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun 2020-ci ilin sentyabrın 27-dən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başladığı Vətən müharibəsi Zəfərlə başa çatıb, şəhidlərimizin qisası alınıb, qanları yerdə qalmayıb.

Qoy 44 günlük Vətən müharibəsi şəhidləri də daxil, bütün şəhidlərimizin ruhu şad olsun!

Azərbaycanın azadlığı, suverenliyi uğrunda canlarını fəda edən şəhidlərin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində bundan sonra da əbədi yaşayacaqdır!

Allah bütün şəhidlərə rəhmət eləsin!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Mübarizə əzmini gücləndirən tarix

Qəbələ Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsdə "20 Yanvar faciəsinin otuz üçüncü ildönümü" ilə əlaqədar toplantı keçirilmişdir. Öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və "20 Yanvar faciəsi" şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Tədbiri giriş sözü ilə açan Qəbələ RMX PHŞ-nin direktoru Ceyhun Əhmədov iştirakçılara "20 Yanvar faciəsi"nin baş vermə səbəbləri haqqında ətraflı məlumat vermiş, bu faciəni doğuran o vaxtkı



ictimai-siyasi hadisələrdən söz açmışdır. Çıxışlarda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet Ordusunun paytaxtın müxtəlif istiqamətlərindən şəhərə daxil olaraq dinc sakinlərə divan tutduqları, günahsız



insanların güllələboran edildiyi qeyd edilmiş, həkimlərin, Tbb Universitetinin tələbələrinin vəzifə borclarını vicdanla yerinə yetirərək çox çətin şəraitdə yaralılara yardım göstərdikləri vurğulanmışdır. Diqqətə çatdırılmışdır ki, həmin faciəli günün səhəri öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra hüquqi və siyasi qiymət verilmişdir. Çıxışlarda bildirilib ki, Azərbaycana qarşı torpaq iddiaları ilə başlayan prosesin davamı olan 20 Yanvar hadisələri xalqımızın mübarizə əzmini qıra bilməyib, əksinə bu hadisələr Sovet İttifaqının süqutunda önəmli rol oynayıb. Qanlı Yanvar hadisələri Azərbaycan xalqının azadlıq istəyini əlindən ala bilməyib. 20 Yanvarın Azərbaycan xalqının qəhrəmanlıq tarixi olduğunu deyən natiqlər bu cür hadisələrdən ibrət götürərək müstəqilliyimizi qorumağın ən müqəddəs məqsəd olduğunu ifadə ediblər.

# Milli azadlıq və müstəqillik üçün açılan yol

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı və Qəbələ Rayonu üzrə Təhsil Sektorunun iştirakı ilə "20 yanvar faciəsinin otuz üçüncü ildönümü" ilə əlaqədar Heydər Əliyev Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında ümummilli lider Heydər Əliyevin rolu" mövzusunda




dəyirmi masa keçirilmişdir. Tədbirdə ulu öndər Heydər Əliyevin, 20 yanvar şəhidlərinin və torpaqlarımızın azad edilməsi uğrunda şəhadətə yüksəlmiş bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılmışdır. Tədbiri giriş sözü ilə İdarənin rəisi Fəxri Soltanov açaraq bildirmişdir ki, 1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecədə həlak olan vətəndaşlarımız Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Çıxış edənlər Azərbaycan xalqının milli azadlıq mübarizəsini boğmaq məqsədilə dinc əhalimizə qarşı törədilmiş amansız və dəhşətli qətliamın müxtəlif aspektlərindən bəhs edərək 20 Yanvar hadisələrinin törədilməsində əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olduğunu bildirmişlər.